AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

14 İYUL 2024-cü il BAZAR № 146 (7904) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLIKA-NEWS.AZ



# "Varlığım qədər sevdiyim Azərbaycanım qibləgahımdır"

***Azərbaycan dövlətinin tarixində əvəzedilməz şəxsiyyət, güclü dövlət xadimi olan Heydər Əliyev xalqına, onun adət-ənənələrinə, milli dəyərlərinə qırılmaz tellərlə bağlı müdrik rəhbər kimi yaddaşlarda əbədi yaşayır.***

Azərbaycançılıq məfkurəsinin və milli ruhun yüksəlişinin, özünüdərkin, xalqın tarixi yaddaşının özünə qaytarılmasının, dövlətçilik ənənələrinin güclənməsinin, mənəvi dəyərlərin dirçəldilməsinin, Azərbaycanın haqq səsinin dünyaya çatdırılmasının təməlini Heydər Əliyev hələ ötən əsrin 70-ci illərindəki fəaliyyəti dövründə qoymuşdu. Bu illərdə Azərbaycanda sürətli inkişaf dövrü başlamış, bütün sahələrdə dahi rəhbərin prinsipiallıqla həyata keçirdiyi sosial-iqtisadi və mədəni siyasət öz bəhrəsini vermiş, ölkə yeni intibah dövrünə qədəm qoymuşdu.

Misilsiz xidmətləri ilə adını tariximizə əbədi yazan, xalqımızın qəlbində özünə abidə ucaldan ulu öndər Heydər Əliyev milli dövlətçiliyimizin banisi, müstəqil Azərbaycanın qurucusudur.

(davamı 4-cü səhifədə)

(əvvəli 1-ci səhifədə)

Ömrünün 35 ilini Azərbaycanın mövcudluğu, inkişafı, tərəqqisinə həsr edən Heydər Əliyev xatirələrində deyirdi: "...Mən balaca bir evdə, zəhmətkeş ailəsində, bir yaz günü dünyaya göz açmışam. Anadan olanda yəqin ki, beş-on, uzağı otuz-qırx nəfər sevinib. İndi, bəlkə də, bir o qədər qeyri-təvazökar səsləndi, amma deməliyəm ki, anam məni bütövlükdə Azərbaycanımız üçün dünyaya gətirib.












Doğma canım, varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır. Bütün şüurlu ömrümü onun inkişafına, tərəqqisinə həsr etmişəm. Bundan sonrakı ömrümü də onun işıqlı sabahları uğrunda qurban verməyə hazıram".

Parlaq zəkası, fitri istedadı, yorulmaz fəaliyyəti, qeyri-adi təşkilatçılıq qabiliyyəti, uzaqgörənliyi, dahi insana, müdrik siyasətçiyə xas xüsusiyyətləri ilə dünya liderləri sırasında böyük nüfuza sahib olan ulu öndərin xalqımız qarşısında ilk xidmətləri təhlükəsizlik orqanlarından başlamışdır. Ötən əsrin ortalarından bu sahədə əmək fəaliyyətinə başlayan Heydər Əliyevin sayəsində milli təhlükəsizlik orqanlarında azərbaycanlıların sayı artırılmış, kəşfiyyat, əks-kəşfiyyat bölməsində peşəkar kadrlar yetişmiş, bu sahə, sözün əsl mənasında, milliləşmişdi. Sovet dövründə bu işləri görmək isə böyük fədakarlıq, vətənpərvərlik, eyni zamanda cəsarət, qətiyyət tələb edirdi ki, bu amillər ulu öndərin bütün həyatı və fəaliyyəti boyu daim ön planda olmuşdur. SSRİ kimi nəhəng dövlətin təhlükəsizlik orqanlarında, son dərəcə ciddi bir qurumda çalışdığı illərdə idarəetməni, diplomatiyanı, beynəlxalq və milli münasibətləri incəliklərinə qədər öyrənməsi onun gələcək fəaliyyətində əsas meyara çevrilmişdir. O illərdə bir azərbaycanlının sovet təhlükəsizlik orqanlarında çalışması çətin, bəlkə də, qeyri-mümkün idi. Lakin DTK-da işlədiyi müddətdə Heydər Əliyev böyük hörmət və etimad qazanmış, Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsinin sədri vəzifəsinə və DTK generalı rütbəsinə qədər yüksəlmişdir. O illərdə Heydər Əliyev haqqında Moskvada da yüksək ictimai rəy formalaşmışdı. Elə bu səbəbdən respublikamıza rəhbərlik etmək üçün Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsində, Nazirlər Sovetində işləyən yüksək vəzifəli şəxslər deyil, məhz Heydər Əliyevin namizədliyi irəli sürülmüş, DTK generalı Heydər Əliyev bu ali vəzifəyə layiq görülmüşdü.

Azərbaycan KP MK-nın birinci katibi təyin olunduqdan sonra Heydər Əliyev SSRİ-nin tərkibində olan sovet Azərbaycanını ittifaqın qanunları ilə idarə etsə də, dahi lider uzaqgörən siyasəti ilə respublikamızın inkişafını, tərəqqisini təmin etmiş, həyata keçirdiyi işlərlə dövlətimizin gələcək müstəqilliyinin təməlini qoymuş, ölkəyə rəhbərliyinin birinci mərhələsini təşkil edən 14 il ərzində yeni bir Azərbaycan yaratmışdır. Belə ki, SSRİ miqyasında yalnız neft ölkəsi kimi tanınan respublikamızda qısa müddət ərzində sənaye və kənd təsərrüfatı sahələri sürətlə inkişaf etməyə başlamış, o illərdə pambıq, üzüm istehsalında yüksək göstəricilərə görə Azərbaycan ittifaq miqyasında şöhrət qazanmışdı. Maşınqayırma sənayesinin inkişafında da ciddi irəliləyişlər əldə olunmuşdu. Dahi liderin təşəbbüsü və gərgin əməyi sayəsində SSRİ-də ilk Kondisioner zavodu Bakıda tikilmiş, Salyan plastik kütlə emalı zavodu, Sumqayıt Kompressorlar zavodu, trikotaj və qənnadı fabrikləri, Gəncədə ət kombinatı kimi onlarla müəssisə istifadəyə verilmişdir. Ölkənin qazlaşdırılmasında, elektrikləşdirilməsində böyük uğurlar qazanılmışdı.

Sovet imperiyasının tərkibində olan kiçik bir respublikada hərbi məktəb açmaq uzaqgörən, düşünülmüş siyasətin təzahürü olmaqla, həm də, sözün əsl mənasında, böyük cəsarətin göstəricisi idi. Gecə-gündüz xalqının gələcəyini, dövlətin müstəqilliyinin bərpasını düşünən və fəaliyyətini məhz bu istiqamətdə quran ümummilli lider Heydər Əliyevin respublika rəhbərliyinə gəlişindən cəmi iki il sonra - 1971-ci ildə Cəmşid Naxçıvanski adına Hərbi lisey yaradıldı. Respublikamızda dövrün ən müasir texniki, elmi, tədris tələblərinə cavab verən hərbi tədris bazasının yaradılması ulu öndərin xalqı, milləti, dövləti qarşısında əvəzolunmaz xidmətləri sırasında mühüm yer tutur. Təsadüfi deyil ki, ermənilərin torpaqlarımızda 200 illik işğalçılıq siyasətinə son qoyan İkinci Qarabağ müharibəsində rəşadət, hünər göstərən zabitlərin böyük əksəriyyəti məhz bu məktəbin yetirmələri idi. Sonralar ulu öndər deyirdi: "Mən indi düşünürəm, - əgər bu hərbi məktəb olmasaydı, bizim ordumuzdakı o zabitlərin çoxu yəqin olmayacaqdı! Çünki bu zabitlərimizin çoxu həmin məktəbin yetirməsidir. Bu məktəbdən sonra biz ildə təxminən 800-900 nəfər gənc azərbaycanlını Sovetlər İttifaqının ali hərbi məktəblərinə göndərirdik. O cümlədən Bakıda yerləşən iki ali hərbi məktəbdə, - onlar indi bizim ixtiyarımızdadır, - zabitlər hazırlayırdıq. İndi ordumuzda olan zabitlərin tam əksəriyyəti həmin dövrdə hazırlanan zabitlərdir, onlar xidmət edirlər. Bu işləri biz vaxtında görmüşük. O dövrdə bizim imkanlarımız məhdud idi, amma bunları etmişik". Bəli, Heydər Əliyevin dahiliyi, müdrikliyi, uzaqgörən siyasəti olmasaydı, Azərbaycan peşəkar zabiti, əsgəri, hərb sənəti, ordusu olmayan bir ölkə kimi müasir tarixinin kəşməkeşlərində böyük fəlakətlərə yuvarlanacaqdı. Ulu öndərin 60-cı illərdən başlayan fenomenal siyasəti bütün bu hadisələrin nəinki qarşısını aldı, eyni zamanda Azərbaycanın hərbi gücünü artırdı.

1978-ci ildə qəbul olunmuş Azərbaycan SSR Konstitusiyasında Azərbaycan dilinin dövlət dili kimi təsbit olunması, ana dilimizə dövlət dili statusu verilməsi ümummilli lider Heydər Əliyevin ölçüyəgəlməz fəaliyyətində böyük əhəmiyyət kəsb edən tarixi hadisədir. 70-80-ci illər respublikamızda həm də elm, təhsil, ədəbiyyat, mədəniyyət və incəsənət sahəsinin çiçəklənmə dövrü kimi xarakterizə olunur.

Bütün ömrünü xalqına, dövlətinə həsr edən ümummilli lider Heydər Əliyev müdrik, uzaqgörən siyasətlə müasir dövlətçiliyimizin təməlini qoymuş, xalqın intibahı və milli maraqlar ulu öndərin həyat amalına çevrilmişdir. Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi, qorunub saxlanması, xalqın vahid amal, əqidə ətrafında birləşməsi dahi rəhbərin ən ali məqsədi olmuşdur. Müdrik siyasətçinin sovet rəhbərliyi dövründə xalqın milli maraqlarını təmin etməsi ötən əsrin 90-cı illərin sonunda milli hərəkatın genişlənməsinə və 1991-ci ildə Azərbaycanın dövlət müstəqilliyinin bərpasına zəmin yaratmışdır.

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**